QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Turizmin inkişafı ilə bağlı yeni Dövlət Proqramı təsdiqləndi



2

# "Azərbaycan çox böyük inkişaf yolu keçib"

Prezident İlham Əliyev Böyük Britaniyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



2

SƏS

№ 063 (7473)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

21 avqust 2026-cı il.
Qiyməti 1 manat

# İran-ABŞ müharibəsi kimə lazımdır?



4

## Azərbaycan muğamının Xanı – Xan Şuşalı



3

## Sahibsiz itlər problemi: Heyvan sevgisi ilə ictimai təhlükəsizlik arasında balans necə qorunmalıdır?



8

## Rusiya mediası terrorçuların təbliğat maşınına çevrilir



7

## Hindistan Ermənistan üçün silah baronuna çevrilir...



4

## İyul ayında dünya rekordu: təhlükə böyüyür



7

# "Azərbaycan çox böyük inkişaf yolu keçib"

## Prezident İlham Əliyev Böyük Britaniyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib





***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 18-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Dankan Normanı qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.***

Çıxışına Azərbaycan dilində başlayan Dankan Norman dedi: "Zati-aliləri, həyat yoldaşım Kerri ilə mən 27 il əvvəl Azərbaycana ilk dəfə gələndə insanların mehribanlığı və Bakının böyük potensialı bizi çox təsirləndirdi. O vaxtdan bəri Azərbaycan çox böyük inkişaf yolu keçib. Ölkələrimiz arasındakı münasibətlərdə yeni səhifəni açmaqdan şərəf duyuram".

Birləşmiş Krallıq ilə Azərbaycan arasında yeni strateji tərəfdaşlıq üzərində işin davam etdiyini bildirən səfir bunun ortaq prioritetlərimiz üzrə daha dərin əməkdaşlıq, təhlükəsizliyin gücləndirilməsi və innovasiyalar vasitəsilə nailiyyətlərimizi daha da inkişaf etdirəcəyini vurğuladı.

Səfir bərpaolunan enerji, müdafiə, aviasiya istiqamətlərində ölkəmizlə dinamik tərəfdaşlıq qurmaq istədiklərini dedi, təhsil sahəsində əlaqələri qeyd etdi və gənclər arasında körpülərin gücləndiyini diqqətə çatdırdı. O, Prezident İlham Əliyevin Azərbaycanla Ermənistan arasında sülhün qurulması istiqamətində səylərinin Böyük Britaniya Hökuməti tərəfindən təqdir edildiyini və bu irəliləyişin dəstəkləndiyini dedi. Dankan Norman, eyni zamanda, ölkəsinin Azərbaycanın minatəmizləmə səylərini dəstəkləyən ilk beynəlxalq tərəfdaş olduğunu xatırlatdı.

Dövlətimizin başçısı səfirə Bakıda xoş vaxt keçirməyi arzuladı, onun Azərbaycan dilində danışmasını yüksək qiymətləndirdi. Prezident İlham Əliyev gündəliyimizlə bağlı məsələlərin yalnız ikitərəfli müstəvidə deyil, regional inkişaf və əməkdaşlıq baxımından da böyük əhəmiyyət kəsb etdiyini dedi.

Minatəmizləmə sahəsində yardıma görə Böyük Britaniya Hökumətinə minnətdarlığını ifadə edən dövlətimizin başçısı bu sahədə ölkəmizin daha sıx beynəlxalq əməkdaşlığa ehtiyacı olduğunu bildirdi.

Otuz il əvvəl Azərbaycan-Böyük Britaniya əməkdaşlığının məhz enerji sahəsində başladığını xatırladan Prezident İlham Əliyev hazırda bərpaolunan enerji istiqamətində tərəfdaşlıq üçün böyük potensialın olduğunu bildirdi, bu xüsusda işğaldan azad olunmuş ərazilərimizdə ilk Günəş Elektrik Stansiyasının bp tərəfindən tikildiyini qeyd etdi.

Dövlətimizin başçısı müstəqilliyimizin 35 ilinin bir ilini sülh şəraitində yaşadığımızı deyərək bunun region üçün böyük bir dəyişiklik olduğunu vurğuladı. Prezident İlham Əliyev dedi ki, regiondakı vəziyyəti nəzərə alaraq, təhlükəsizlik bizim gündəliyimizdə prioritet olmağa davam edəcək. Ölkəmizdə müsbət investisiya mühitinin yaradıldığını deyən dövlətimizin başçısı Azərbaycan və Britaniya şirkətləri tərəfindən böyük qarşılıqlı marağın olduğunu vurğuladı. Prezident İlham Əliyev səfirə fəaliyyətində uğurlar arzuladı.

## Əziz Əliyevin 130 illiyi qeyd ediləcək - SƏRƏNCAM

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 130 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, Əziz Əliyev yüksək amallara və humanist ideallara sadiq, xalqa xidmətin parlaq nümunəsini yaratmış nadir şəxsiyyətlərdəndir. O, müxtəlif məsul vəzifələrdə çalışaraq dövlət quruculuğu və idarəçiliyin təkmilləşdirilməsi istiqamətində səmərəli fəaliyyət göstərib.

Əziz Əliyevin Azərbaycanda səhiyyə sisteminin yeni əsaslar üzərində qurulmasında, tibb təhsilinin inkişafında və milli tibb kadrlarının hazırlanmasında müstəsna rolu olub. O, İkinci Dünya müharibəsi illərində hərbi-siyasi əhəmiyyət daşıyan bir sıra mühüm işlərə rəhbərlik edib. Azərbaycan və Dağıstan arasında münasibətlərin möhkəmləndirilməsinə verdiyi töhfələr də onun fəaliyyətinin mühüm istiqamətlərindən olub.

Sərəncama əsasən, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə Elm və Təhsil Nazirliyi və Xarici İşlər Nazirliyi ilə birlikdə Əziz Əliyevin 130 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirmək, Nazirlər Kabinetinə isə Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb. Qeyd edək ki, Əziz Əliyevin 130 illiyi 2027-ci ilin yanvarında tamam olur.



# Turizmin inkişafı ilə bağlı yeni Dövlət Proqramı təsdiqləndi

Azərbaycanda turizmin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı təsdiqlənib. Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb. Sərəncamla Nazirlər Kabineti (NK) altı ay müddətində Dövlət Turizm Agentliyinin təklifləri əsasında "Turizm haqqında" qanunun təkmilləşdirilməsi, üç ay müddətində isə turizm fəaliyyəti ilə bağlı layihələrə investisiya təşviqi sənədinin verilməsi və turizm fəaliyyətinin xüsusiyyətləri nəzərə alınmaqla investisiya təşviqi sənədinin verilməsi mexanizminin təkmilləşdirilməsini təmin etməlidir.

Bundan başqa, NK Dövlət Proqramının 8.8.1.3-cü abzasında və 8.8.2-ci yarımbəndində nəzərdə tutulmuş dövlət büdcəsi hesabına verilən subsidiya şərtlərinə dair, həmçinin nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti həyata keçirməli və tədbirlərin icrası barədə ildə bir dəfə Azərbaycan Prezidentinə məlumat verməlidir.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi hava nəqliyyatının turizmin inkişafına töhfəsinin artırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Nazirlər Kabinetinə təqdim etməlidir.

Maliyyə Nazirliyi və İqtisadiyyat Nazirliyi Dövlət Turizm Agentliyi ilə birlikdə Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi məqsədilə hər il dövlət büdcəsinin və dövlət investisiya proqramlarının tərtibi prosesində zəruri maliyyə vəsaitinin nəzərdə tutulması üçün müvafiq tədbirlər görməlidir.

Tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Dövlət Turizm Agentliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirəcək.

# Azərbaycan muğamının Xanı – Xan Şuşalı

Qarabağ xanlığının paytaxtı olmuş Şuşa Kiçik Qafqaz dağlarının yaratdığı gözəlliklərin qoynunda yerləşir. Təbiətin öz möcüzələrini əsirgəmədiyi bu şəhərin yetişdirdiyi şairlər, rəssamlar, memarlar, musiqiçilər ölkənin tarixi-mədəni irsinə öz töhfələrini vermişdirlər. "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" adlandırılan Şuşa. Əsrlərdən səsi eşidilən, hər zaman toy-büsatlı olan Şuşamız tarixin dönəmlərində çox hücumlara məruz qalıb və başını dik tutub, əyilməz, məğlubedilməz olub. Çox gözlər dikilib bu diyara. Hər daşında bir tarix yaşar, bir tarix danışılar. 28 il erməni işğalı altında qalan Şuşamız bu gün azad nəfəs alır. Zaman-zaman Şuşamızın hər yerindən xalq ruhunu əks etdirən musiqi sədaları eşidilib. Şuşada, Cıdır düzündə festivallar, tədbirlər keçirilib, xalqın ruhu, istəyi öz ifadəsini tapıb. Bu şəhəri Azərbaycan mədəniyyət tarixində özünəməxsus yeri və rolu var. Şuşanın yetirdiyi sənətkarların hər biri mədəniyyət tariximizdə dəsti-xətti ilə seçilib. Azərbaycan muğam sənətinin böyük ustadı, musiqimizin xanı, bu gün haqqında söz açacağımız Xan Şuşinski kimi. 1901-ci ilin 20 avqust tarixində dünyaya göz açan sənətkar ömrünün son gününə qədər səhnədə öz səsini, nəfəsinin ahəngini qoruyub saxlaya bildi. Musiqi beşiyi tək qəbul olunmuş və bu gün Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə Azərbaycan mədəniyyətinin paytaxtı elan olunan Şuşamızda dünyaya öz açıb. Böyük sənəkarların beşiyində boy atan balaca oğlan tez bir zamanda enişli-yoxuşlu yolları keçdi və adı sənətin fövqündə hallandı. Tərcümeyi-halı zəngin bir xəzinə olan sənətkar böyük bir məktəbin müəllifinə çevrildi. Sənət tarixinə tərcümey-halı həkk olunan yazılarda qeyd edilir ki, Xan Şuşinskinin əsl adı İsfəndiyar olsa da, tez bir zamanda, bu isim dəyişildi. İsfəndiyar Aslan oğlu Cavanşirov kimi deyil, Xan Şuşinski kimi tanındı. Bu ad ona 12-13 yaşlarında məclislərin birində verildi.

### "ŞUŞANIN DAĞLARININ BAŞI NİYƏ DUMANDIR?"

Böyük sənətkar Şuşanın bünövrəsini qoyan Cavanşir sülaləsindən olan Aslan bəyin ailəsində dünyaya göz açıb. Ancaq sovet hakimiyyəti qurulduqdan sonra Ballıca kəndində, Şuşada mülkü və dörd kəndi olan Aslan bəyin bütün var-dövləti müsadirə edilir. Bu hadisədən sonra Aslan bəy Bərdəyə köçür. Beləliklə, İsfəndiyarın sənətə gəlişində Segah İslamın xüsusi rolu olub. Belə ki, Segah İslam məclislərin birində səsini bəyəndiyi İsfəndiyarı özünə şagird götürüb. Xan Şuşinski çox məsuliyyətli insan olub. Xan səsini qoruyan idi. O, müəyyən təamlardan, nemətlərdən həmişə özünü təcrid edib. Bunun səbəbini soruşanda isə, söyləyib ki, İlahi əmanətinə naxələf çıxa bilmərəm. Xan Şuşinski gənclikdə ona verilən Xan adının məsuliyyətini ömrünün sonuna qədər daşıyıb. O, Azərbaycan musiqisinin həqiqi Xanı olub. Cabbar Qaryağdıoğlunun: - "Səsin sənə qulaq asmadı, - oxuma, zökəm oldun, - oxuma, yorğun oldun, - oxuma. Bakının dəli havasından özünü qoru. Küləkli havada bayıra çıxma, istidən tərləsən belə, soyuq su içmə", - sözlərini ömrü boyu unutmayan Xanın səsi həmişə yerində olub. Yaşının ən ahıl çağlarında belə, o, səs imkanlarını qoruya bilib. Sənətkarın bir sıra bəstələri də olub. Çox zaman xalq mahnıları kimi təqdim olunan "Qəmərim", "Şuşanın dağları", "Ay gözəl", "Məndən gen gəzmə", "Al yanağında", "Dağlarda çiçək", "Gözəl yarım", "Ölürəm, a Ceyran bala" mahnılarını Xan Şuşinski bəstələyib. Vurğulamaq yerinə düşər ki, "Şuşanın dağları" mahnısının sözləri də Xana məxsusdur. Bu mahnının sözlərinə görə, hətta vaxtilə onu çək-çevirə də salıblar - "Şuşanın dağlarının başı niyə dumandır? Bununla nə demək istəyirsən?". Xan Şuşinski da bu sualın cavabında bildirir ki, Şuşa dağlarının başı həmişə dumanlı olur. Yenə əl çəkmirlər. Nəhayət, Xan məcbur olub, bir müddət bu mahnının sözlərini dəyişərək, "Şuşanın dağları deyil dumanlı" kimi oxuyur.

"Mirzə Hüseyn segahı" onun ifasında yeni bir nəfəslə təqdim olunur. Adətən də, onu "Mirzə Hüseyn segahı"nın ikinci müəllifi adlandırırlar. Çünki 120-130 il sürən uzun fasilədən sonra bu muğama Xan yenidən "Manəndi müxalif" şöbəsini əlavə edib. Simfonik orkestrin müşayiətilə ilk dəfə simfonik muğamlarda solo hissəni Xan oxuyub.



### MUSİQİ TARİXİMİZDƏ İLK DUET

Musiqi tariximizdə ilk duet də böyük sənətkarın adı ilə bağlıdır. Azərbaycan musiqi tarixində ilk duet Şövkət xanım Ələkbərova ilə Xan Şuşinskinin ifasında səslənib. Deyilənə görə, Üzeyir Hacıbəyli Xan Şuşinskinin ifasında mahnılarını dinləməkdən xüsusi zövq alırmış. Xüsusən də, "Qaragöz" mahnısını. Yeri gəlmişkən, onu da deyək ki, 1926-cı ildə bəstələnən bu mahnının ilk ifaçısı da elə Xan Şuşinski olub.

"Qarabağ şikəstəsi"ni oxumağı çox sevərmiş. Şikəstə ondan əvvəl məclisdə 3-4 xanəndənin ifasında səslənsəydi də, Xan bütün çıxışlarında həmişə birinci "Qarabağ şikəstəsi"ni oxuyarmış. Onun ifası haqqında Cabbar Qaryağdıoğlu deyir ki, "Seyidlə üç-dörd il idi Qarabağa getmirdik. Dedik sənin səsinlə Qarabağın axar-baxarlı dağlarını, Turş suyunu, İsa bulağını, Cıdır düzünü, Topxana meşəsini gedib gəzib gələk. Çox sağ ol. Gəzdik gəldik". Xanın səsi Qarabağın ab-havası idi.

Xan geniş səs diapazonuna sahib olmaqla yanaşı, Azərbaycan mədəniyyətini bütün dünyaya tanıtması ilə də xalq arasında böyük müvəffəqiyyət qazanmağa nail olub. Azərbaycan milli musiqisinin təbliği yolunda böyük nailiyyətlərə imza atıb. O, mürəkkəb muğamların mahir bilicisi olub. Səsini istədiyi kimi dəyişməkdə, zəngulə vurmaqda bir çox tanınmış xanəndələrin diqqət mərkəzində olub. Xan təvazökar, sadə sənətkar olub. Sirlərini dostları, həmyaşıdları ilə bölüşüb. Yoldaşlıqda, dostluqda sadiq olan Xan Şuşinski ailədə də qayğıkeş, mehribanlığı ilə sevilib. Azərbaycan musiqi tarixinin əvəzolunmaz korifeyi Xan Şuşinski səsinin yadigarı kimi cəmisi 240 dəqiqəlik lent yazısı qalıb. Xan Şuşinski yaradıcılığına xas olan cəhət ondakı təkrarolunmaz ifa üslubu idi. Əksər müasirlərindən fərqləndirən xüsusiyyəti onun güclü və nadir təsadüf olunan tembrli səsə malik olması və vokal texnikasına ustalıqla yiyələnməsi idi. Xanın repertuarında "Mahur-hindi", "Bayatı-Qacar", "Qatar" muğamları ilə yanaşı, ritmik "Arazbarı", "Heyratı" muğamları, xalq mahnı və təsnifləri geniş yer tutmuşdur. Xan onları xüsusi zövqlə ifa edir, hər ifasında da onları yeni-yeni xallarla zənginləşdirir və inkişaf etdirirdi.

Zaqafqaziya xalqlarının 1934-cü ildə Tiflis şəhərində keçirilən ilk müsabiqəsində Xan Şuşinski birinci dərəcəli mükafata layiq görülmüşdü. Hələ o zamana qədər məşhur xanəndə kimi ad çıxarmış Xanın şöhrəti artıq Azərbaycanın sərhədlərini aşıb daha uzaqlara yayılmışdı. Xan Şuşinski, nəinki muğamın bilicisi idi, eyni zamanda, çox sayda xalq mahnısını yaddaşında qoruyub yaşadırdı. Həqiqi yaradıcılıq qabiliyyətinə sahib insan kimi, o, xalq musiqisi xəzinəsini öz mahnıları ilə də zənginləşdirmişdir. Xan Şuşinski ömrünün 50 ildən çoxunu muğamın yaradıcı şəkildə inkişafına həsr etmişdir. O, milyonların sevimlisi kimi tanınırdı, onun ifalarını heyranlıqla qarşılayırdılar.

Xan Şuşinski çox sayda istedadlı xanəndə yetişdirmiş və milli musiqi sənətinin inkişafına böyük təsir göstərmişdi. Muğam sənətinə müasir dövrümüzdə olan münasibətin nəticəsidir ki, Heydər Əliyev Fondu tərəfindən muğam albomu buraxılmış və sənət korifeyləri sırasında Xan Şuşinskinin də səsi yazılmış lentlər yüksək, nəfis bir şəkildə bu topluya daxil edilmişdir. İndi demək olar ki, dünyanın hər bir ölkəsində Xan Şuşinski ifası dinlənilir, Azərbaycan muğamları fərqli bir şəkildə təqdim olunur. Bu gün işğaldan azad olunan Şuşamızda yenidən toy-büsata qovuşub. Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın "Xarıbülbül" musiqi festivalına ev sahibliyi etməsi bu sənət beşiyindən olan sənətkarların ruhunu şad etdi. 2020-çi ildə noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. Şuşada bu gün bayrağımız dalğalanır və Şuşada aparılan abadlıq-quruculuq işləri Xan Şuşinski kimi haqq dünyasında olan və ruhu göylərdə dolaşan böyük sənətkarlarımızın ruhunu şad edir.

***Nəzakət Ələddinqızı***

# "Azərbaycanın beynəlxalq birlikdə nüfuzu artır"



"Cənab Prezidentimizin apardığı uğurlu dövlətçilik siyasəti beynəlxalq birlikdə də hörmət qazanıbdır. Ölkə daxilində inkişaf var, stabillik var, vətəndaşların təhlükəsizliyi qorunur, cəmiyyətimiz qarşısına duran məsələlər həll olunur". Bu sözləri SİA-ya açıqlamasında deputat Aydın Mirzəzadə deyib. Onun sözlərinə görə, Beynəlxalq birlikdə ölkəmiz etibarlı tərəfdaş kimi tanınır: "Ehtiyac olduqda digər dövlətlərə humanitar yardım göstərir. Birgə iqtisadi layihələrimiz var. Azərbaycanın təşəbbüsləri beynəlxalq birlikdə sülhün, əmin-amanlığın təmin edilməsində böyük rol oynayır. Heç də təsadüfi deyil ki, cənab Prezidentimizin beynəlxalq birlikdə nüfuzu da böyüyür. Aparıcı dövlətlərin eyni zamanda beynəlxalq təşkilatların nümayəndələri vaxtaşırı ölkəmiz və cənab Prezident haqqında yüksək fikirlərini bildirirlər və Azərbaycanın böyük iyirmilik sammitinə dəvət edilməsi Azərbaycan nüfuzunun, cənab Prezidentimizin nüfuzunun qiymətləndirilməsidir. İnanıram ki, liderimizin həmin tədbirdə iştirakı dünya məsələlərinin həllində Azərbaycanın da mövqeyinin səslənməsinə eyni zamanda birlikdə sülh uğrunda mübarizəyə töhfə verəcəklər. Bu sevindirici xəbərdir. Bu, Azərbaycanın nüfuzunun artmasının göstəricisidir və... canlı arada yarımçıq kəsildi və bu, Azərbaycanın beynəlxalq birlikdə necə böyük hörmətə sahib olduğunu göstərir".

***Lətifə Musayeva***

# İran-ABŞ müharibəsi kimə lazımdır?

***2026-cı il fevralında başlayan ABŞ-İsrail hücumlarından sonra İranla müharibə artıq altıncı aya keçib və Hormuz boğazındakı gərginlik qlobal enerji bazarını ciddi silkələyir. Bəs, kim nə qazanmağa çalışır?***



ABŞ İranın nüvə və raket imkanlarını zəiflətmək, Tehranın regional təsirini azaltmaq və körfəzdə ABŞ-ın strateji mövqeyini qorumaq istəyir. Vaşinqton həmçinin İranı daha sərt nüvə razılaşmasına məcbur etməyə çalışır.

İsrail İranın nüvə proqramını və ölkəsinə qarşı hərbi imkanlarını uzunmüddətli təhlükə kimi görür. Buna görə İranın hərbi potensialının zəiflədilməsi İsrail üçün birbaşa strateji məqsəddir.

İran hakimiyyəti isə müharibəni həm xarici təzyiqə müqavimət, həm də hakimiyyətin daxildə səfərbərlik və legitimlik vasitəsi kimi istifadə edə bilər. Eyni zamanda Tehran Hormuz üzərindəki təsirini ABŞ-a qarşı əsas rıçaqlardan biri kimi saxlayır.

Müharibə Rusiya və Çinin birbaşa ideal ssenarisi deyil, amma ABŞ-ın resurslarının Yaxın Şərqdə bağlanması və ABŞ-ın strateji diqqətinin bölünməsi onlara müəyyən geosiyasi imkanlar yaradır. Çin isə həm İranla, həm də Körfəz ölkələri ilə iqtisadi əlaqələrə malik olduğundan müharibənin uzanmasından ciddi iqtisadi zərər də görür.

Enerji və müdafiə şirkətləri müharibənin ən konkret iqtisadi benefisiarlarından bəziləri bunlardır. Neftin bahalaşması enerji sektoruna, silah və sursat tələbinin artması isə müdafiə sənayesinə əlavə gəlir gətirə bilər. Münaqişənin ilk aylarında müdafiə podratçıları və enerji şirkətlərinin gəlirlərinin artdığı barədə təhlillər də dərc olunub.

Amma ən maraqlı məqam budur, müharibənin "qalibi" ilə müharibənin "davam etməsində maraqlı olanlar" eyni şey deyil. Məsələn, neftin bahalaşması bəzi şirkətlərə xeyir verə bilər, amma eyni zamanda ABŞ, Avropa və Asiyada inflyasiyanı və nəqliyyat xərclərini artırır. Hazırda Brent neftinin təxminən 94 dollar/barrel səviyyəsinə qalxması bunun əyani nümunəsidir. Ən düzgün çərçivə belədir, bu müharibə bir nəfərin və ya bir ölkənin "layihəsi" deyil. ABŞ, İsrail, İran, Körfəz ölkələri, Çin və Rusiyanın bir-birindən fərqli strateji məqsədlərinin toqquşmasının nəticəsidir. Ən böyük itirənlər isə sıravi iranlılar, israillilər və region xalqları, həmçinin qlobal iqtisadiyyatdır.

## Reallıq...

Altı ay əvvəl, 19 fevralda Donald Tramp Air Force One təyyarəsində İranın "razılaşma əldə etmək" üçün "ən çox 10-15 gün" vaxtının olduğunu və İranın bu müddətə əməl etməməsi halında "çox pis şeylərin" baş verəcəyini elan etdi. Geriyə baxanda bu, ultimatum deyil, tarix üçün alibi axtarışı idi: hər kəs bilməli idi ki, Amerika prezidenti dürüstcə "asan yolla" razılığa gəlməyə çalışıb. Bəlkə də 28 fevralda İranı sarsıdan zərbələrə hazırlıq əmri həmin gün həmin təyyarədə verilib. Zəfər anını gözləməkdən zövq alan Tramp, şübhəsiz ki, bundan sonra nələrin baş verəcəyini, tezliklə hansı "çox pis şeylərin" baş verəcəyini və kimin başına gələcəyini bilmirdi.

İranla müharibə, necə bitməsindən asılı olmayaraq, reallıqdan kənar bir siyasətçinin verdiyi qərarların uzunmüddətli dəyərini acı bir xatırlatma kimi tarixə düşəcək. Altı ay sonra Trampın irəli sürdüyü "sazişin" ilkin məqsədi (İranın nüvə proqramının ləğvi) barədə Trampdan başqa heç kim danışmır. Hörmüz boğazının açılması hazırda Amerika diplomatiyası üçün ən vacib vəzifədir.

Ərəb dünyasındakı ABŞ müttəfiqləri də öz təhlükəsizliklərini təmin etmək üçün mübarizə aparırlar, çünki məlum olur ki, Amerika müdafiə "çətiri" onları heç nədən qoruya bilmir. Dubay və Ər-Riyada hücum edən dronlar və raketlər Türkiyə, Səudiyyə Ərəbistanı və Pakistan arasında ittifaq üçün yol açıb. Bu, artıq İsraili narahat edir, çünki Amerika dedi-qodularına görə, Tramp onun qorunması üçün İran macərasına başlayıb. Türkiyə getdikcə güclənir. Rəcəb Tayyib Ərdoğan orada hakimiyyətdədir. Yaxın Şərq radikal qrupları diqqətlərini İrandan Türkiyəyə yönəldə bilərmi? HƏMAS artıq qərargahını İstanbula köçürməyə hazırlaşır. Yeri gəlmişkən, Türkiyə NATO üzvüdür və hələ də (yalnız nəzəri olaraq olsa da) AB-yə qoşulmağa can atır.

Amerikanın Avropa müttəfiqləri artıq müharibədən o qədər də həyəcanlanmasalar da, yeni bir problemlə qarşılaşıblar - Türkiyə. Fars körfəzindən sabit neft tədarükünün pozulması səbəbindən Avropa əhəmiyyətli maddi itkilərə məruz qalıb. Avropalılar Trampın isterikaya dözməli olublar, İrana hücumlarına dəstək olmamalarından və ya heç olmasa yersiz dəstəyə görə narazıdırlar. Bundan əlavə, İran şəhərlərinə atılan hər bir Amerika raketi, potensial olaraq ABŞ-ın Ukraynaya ötürdüyü bir raketin azalması deməkdir. Bəlkə də Rusiya bundan faydalanır və Trampın müharibəsinin arxasındakı səbəb Kremlə yaxşılıq etməkdir? Bu da ehtimal olunmur. Əgər bu, həqiqətən baş verərsə (hələ baş verməyib), Ukraynaya Amerika silah təchizatının azalması yalnız Avropa NATO ölkələrindən təchizatın artmasına səbəb olacaq. Tramp istəsə belə, Ukraynanı yalnız ABŞ-ın təmin edə biləcəyi müdafiə xidmətlərindən məhrum edə bilməyəcək. Belə bir vəziyyətdə həmişə Konqres, prezidentpərəst Respublikaçılar Partiyası və Ukraynapərəst konsensusun hökm sürdüyü Amerika cəmiyyəti var. Hətta qlobal neft qiymətlərinin artması belə Rusiya iqtisadiyyatı üçün o qədər də böyük bir təkan olmadığını sübut etdi, çünki bundan yararlanmaq qabiliyyətinə hələ də aradan qalxmamış amillər təsir göstərir. Bunlara sanksiyalar, "premium" Avropa bazarının Rusiyaya bağlanması və daha çox şey daxildir.

Trampın İranla müharibəyə başlamaq qərarı bir sıra hadisələrə səbəb olub ki, bu da nəticədə təkcə Amerikanın deyil, bütün mövcud beynəlxalq münasibətlər sistemini gücləndirmək əvəzinə, zəiflədib. Uduzanlar çoxdur və demək olar ki, heç kim bu fürsətdən yararlanmır. Həmçinin yadda saxlamaq lazımdır ki, bu müharibəni keçmiş zamanda təsvir etmək mümkün deyil. Beləliklə, dünya hələ də onun tam dəhşətli nəticələrini yaşamayıb.

***V.VƏLİLİ***

# Hindistan Ermənistan üçün silah baronuna çevrilir...

## Mətləb Salahov: "Hindistan daha çox Ermənistan bazarında Rusiyanın yerini doldurmağa çalışır"



**"Əvvəla ondan başlayım ki, 44 günlük müharibə dövründə və ondan əvvəlki zamanlarda Hindistan ardıcıl şəkildə Ermənistanın silah arsenalını yeniləyən dövlət kimi tanınır. Rəsmi Dehli bütün zamanlarda İrəvanın yanında yer alıb və bu proses günü bu gün daha aktiv şəkildə davam edir. Bəs bu ölkədə Azəbaycan əleyhinə belə ritorika nədən qaynaqlanır? Məlumdur ki, Azərbaycan və Pakistan müttəfiq ölkələrdir və bu müttəfiqlik tarixin sınaqlarından çıxıb.**

Pakistanla düşmən münasibətdə olan Hindistan isə həm özünə silah bazarı tapmaq, həm də dünya siyasətində zəif olan nüfuzunu və təsirini mümkün qədər yuxarı qaldırmaq üçün Ermənistan üzərindən fəallaşmağa, rəsmi İrəvanı müdafiə edən Qərb strukturları ilə işbirliyini möhkəmləndirməyə çalışır. Açıq-aydın görünür ki, Hindistan dünya siyasətində varlığını hiss etdirmək və Qərb dövlətləri üçün "lazımlı dövlət" olduğunu isbatlamaq üçün Ermənistandan tramplin kimi istifadə edir. Bu gerçək faktdır".

Bu fikirləri SİA-ya açıqlamasında jurnalist-ekspert Mətləb Salahov¸eş Kumar Sinqxin İrəvana iki günlük səfəri və bu barədə Rusiya və habelə yerli mediada dərc edilən sensasion faktlar iki ölkə arasındakı silah ticarətinin daha aktiv fazaya keçdiyini, rəsmi irəvanın Hindistandan güclü silah arsenalı əldə etdiyinə işarədir. " Diqqət edin: görüşlərdən sonra iki ölkə arasında müdafiə sənayesində tədqiqat, innovasiya və birgə istehsal üzrə memorandum imzalanıb. Sənəd sadəcə hazır silahların alınmasını deyil, müdafiə texnologiyalarının hazırlanmasını, mütəxəssis mübadiləsini, startap və innovasiya layihələrini də nəzərdə tutur.

Bu gün Ermənistan Hindistan üçün əsas silah bazarına çevrilib. Xüsusilə Rusiya ilə hərbi ticarət əməkdaşlığını minimuma endirən Ermənistan, Fransa və Hindistan üzərindən silah idxalını artırır. Dehli artıq Ermənistana yalnız kiçik həcmli hərbi məhsullar satmır. Çünki son illərdə İrəvan Hindistanın "Svathi" radarları, "Pinaka" yaylım atəş sistemləri, "Akaş" hava hücumundan müdafiə sistemi və artilleriya sistemləri ilə maraqlanıb və bu istiqamətdə müqavilələr bağlayıb. Hindistan daha çox Ermənistan bazarında Rusiyanın yerini doldurmağa çalışır. Nə zamana kimi?- onu da zaman göstərəcək..."

***Afət Tahirqızı***

**Parasels**

# Kriminal zəhərlənmələr: mərgümüş və risindən poloniuma və epibatidinə qədər

## Hər şey zəhərdir və hər şey dərmandır. Yalnız doza dərmanı zəhərə, zəhəri isə dərmana çevirir

2026-cı ilin fevralında kriminal zəhərlənmələr tarixinə əvvəlcədən təsəvvür edilməsi çətin olan yeni bir səhifə əlavə olundu. Böyük Britaniya, Fransa, Almaniya, İsveç və Niderland eyni vaxtda bəyan etdilər ki, Aleksey Navalnının bioloji nümunələrində epibatidin aşkar olunub. Bu, Cənubi Amerikada yaşayan zəhərli ağac qurbağalarının ifraz etdiyi son dərəcə toksik alkaloiddir. Navalnının özü isə iki il əvvəl, 16 fevral 2024-cü ildə, Qütb dairəsinin o tayındakı koloniyada vəfat etmişdi. Beş dövlət zəhərlənməni ölümün ən ehtimal olunan səbəbi hesab etdi.

Bu hekayənin daha əvvələ gedib çıxan bir başlanğıcı var. 2020-ci ilin avqustunda Tomsk-Moskva reysi ilə uçan təyyarədə Navalnının halı qəfil pisləşmişdi. Uçuşdan az əvvəl o, hava limanında çay içmişdi. Təyyarə təcili Omska endirildi, siyasətçi reanimasiya şöbəsinə yerləşdirildi, iki gün sonra isə Berlinin Charit? klinikasına aparıldı. Almaniya, Fransa və İsveç laboratoriyaları kimyəvi silahlar sinfinə aid "Noviçok" maddəsinə struktur baxımından yaxın olan xolinesteraza inhibitorunun təsir izlərini aşkar etdilər.

Mənzərə olduqca qaranlıqdır. Aralarında az qala dörd il fərq olan iki sui-qəsd. Bir-birindən tamamilə fərqli iki toksik agent. Eyni qurban. Hələ yaxın keçmişə qədər belə bir süjet hətta casus romanı üçün də həddən artıq şişirdilmiş görünərdi.

Zəhərlə qətl ideyasının özündə isə yeni heç nə yoxdur. Minilliklər boyu zəhər qatil üçün məhz səssizliyinə görə cəlbedici olub. Atəş səsi yoxdur. Bıçaq yarası yoxdur. Çox vaxt ortada aşkar cinayət izi də olmur. Ölüm infarktı, insultu, bağırsaq infeksiyasını və ya daxili orqanların qəfil çatışmazlığını xatırladır. Həkim və ya müstəntiq ilk saatlarda intoksikasiya ehtimalını düşünməyibsə, laborator diaqnostika üçün ən qiymətli vaxt artıq itirilmiş olur.

Elə buna görə də kriminal zəhərlənmələrin tarixi təkcə cinayətlərin tarixi deyil. Gizli qətlin hər yeni üsulu gec-tez tibb və kriminalistikanı onu sübut etməyin yeni yolunu axtarmağa məcbur edib.

Qədim dövrlərdə hər şey daha sadə idi. Roma müəllifləri zəhərləyici qadın Lokusta haqqında yazırdılar; onun adını Klavdi və Neron dövrünün saray ölümləri ilə, o cümlədən imperator Klavdinin 54-cü ildə zəhərli göbələk yeməyindən sonrakı ölümü ilə əlaqələndirirdilər. Orta əsrlərdə uzun müddət gizli qətlin başlıca vasitəsi mərgümüş, yəni arsen olmuşdur. O, ucuz və əlçatan idi, təsirini isə mədə-bağırsaq sisteminin ağır xəstəliyi ilə asanlıqla səhv salmaq mümkün idi. Əsrlər boyu arseni etibarlı şəkildə aşkar edən üsul yox idi. Avropada ona hətta "miras tozu" adı da vermişdilər.

Amma gözəl səslənən hər tarixi hekayə sübut olunmuş zəhərlənmə demək deyil.

Klassik nümunə Qriqori Rasputindir. Məşhur versiyaya görə, 1916-cı ilin dekabrında ona sianid qatılmış pirojna və şərab veriblər, zəhər təsir etməyib və Rasputini güllələməli, sonra isə çaydakı buz dəliyinə atmalı olublar. Onilliklər boyu bu hadisə zəhərə qarşı az qala fövqəltəbii dözümlülük nümunəsi kimi göstərilib. Hətta izahlar da irəli sürülürdü: şirin xəmirdəki sianid qismən daha az zəhərli olan sianhidrinlərə keçə bilərdi. Lakin mənbələrin araşdırılması daha adi bir mənzərəni üzə çıxardı. Təfərrüatların böyük hissəsi qətldə iştirak edənlərin xatirələrindən götürülmüşdü və meyitin müayinəsi zamanı əldə olunan məlumatlarla qətiyyən uzlaşmırdı.

XX əsrdə isə zəhər ayrı-ayrı cinayətkarların aləti olmaqdan çıxdı və xüsusi xidmətlərin arsenalına daxil oldu.

1921-ci ildən VÇK və OQPU strukturunda "xüsusi kabinet" adlanan bölmə fəaliyyət göstərirdi. Sonralar o, "X laboratoriyası" kimi tanındı. 1937-1951-ci illərdə laboratoriyaya professor Qriqori Mayranovski rəhbərlik edib. Onun bioqrafiyasında Bakı ilə bağlı bir səhifə də var: Batumidə doğulan Mayranovski Tiflisdə başladığı təhsilini Bakı Universitetində davam etdirib və yalnız bundan sonra Moskvaya köçüb. Laboratoriyanın



***Azərbaycan Toksikoloqlar Dərnəyinin sədri dosent İsmayıl Əfəndiyev***

qarşısında duran vəzifə çox aydın idi: təsiri təbii ölüm və ya adi xəstəlik kimi görünən zəhərlər tələb olunurdu. İlk qurbanlardan biri kimi 1928-ci ildə Brüsseldə qəfildən vəfat edən general Vrangelin adı çəkilir. Rəsmi diaqnoz vərəm idi. Yaxınları isə ömürlərinin sonuna qədər onun zəhərləndiyini deyirdilər.

Bəzən həqiqət tərəf dəyişib Qərbə qaçan agentlərin sayəsində üzə çıxırdı. Lev Rebet 1957-ci ilin oktyabrında Münhendə öldü və hər şey infarkt təsiri bağışlayırdı. İki il sonra Stepan Bandera da elə həmin şəhərdə, eyni dərəcədə qəfil həyatını itirdi. Yalnız 1961-ci ildə KQB əməkdaşı Boqdan Staşinski Qərbə qaçdı və qurbanın üzünə sianid birləşməsi püskürdən xüsusi qurğudan istifadə etdiyini etiraf etdi. Onun ifadələri AFR-də keçirilən məhkəmə prosesinin əsasını təşkil etdi.

Elə həmin 1957-ci ildə Frankfurtda, "Posev" nəşriyyatının konfransında sovet tərəfini tərk etmiş Nikolay Xoxlov zəhərləndi. Onun qəhvəsinə radioaktiv tallium qatılmışdı. Güman edirdilər ki, klinik mənzərə ağır qan xəstəliyini xatırladacaq və heç kim heç nəyi sübut edə bilməyəcək. Xoxlovu amerikalı həkimlər xilas etdilər. Saçları töküldü, bədəni tünd ləkələrlə örtüldü və həftələrlə xəstəxanada qaldı. Taleyin ironiyası ondadır ki, o özü də peşəkar likvidator idi. 1954-cü ildə Xoxlova NTS rəhbərlərindən Georgi Okoloviçi öldürmək tapşırılmışdı, o isə bunun əvəzinə gələcək qurbanının evinə gedib hər şeyi etiraf etmişdi.

Bu silsilənin ən məşhur hadisəsi bolqar yazıçısı Georgi Markovun 1978-ci ilin sentyabrında Londonda ölümüdür. Avtobus dayanacağında o, ayağında qəfil kəskin sancı hiss etdi və yanında çətir tutan bir adam gördü. Tez-tez yazıldığı kimi bir neçə saat sonra deyil, dörd gün sonra öldü. Toxumalar müayinə edilərkən kiçik metal kapsul tapıldı; hadisənin baş vermə şəraiti isə kapsulu hüceyrədə zülal sintezini bloklayan bitki mənşəli toksin - risinlə əlaqələndirirdi. Digər bolqar mühaciri Vladimir Kostovun bəxti daha çox gətirdi. Paris metrosunda o da oxşar sancı hiss etdi, amma kapsul vaxtında çıxarıldı və kapsulun dəliyini bağlayan mum əriməyə macal tapmadı. Bu əhvalat o qədər təsirli idi ki, kütləvi mədəniyyətə də yol tapdı və fransız komediyası "Çətirlə sancma" filminin adına çevrildi.

Buna bənzər zəhərlənmə cəhdləri az olmayıb və onların heç də hamısı məqsədinə çatmayıb. 1970-ci illərdə Aleksandr Soljenitsinə güclü təsirli maddə yeridilmişdi: əməliyyat Novoçerkasskda mağaza növbəsində aparılmış, zəhərin bütün dozasını vurmaq mümkün olmamışdı. Yazıçı bir neçə gün ölümlə həyat arasında qalsa da, sonda sağ qaldı. Əməliyyatda iştirak etmiş keçmiş agent yalnız 1990-cı illərdə, SSRİ dağılandan sonra etdiyi əməli açıq şəkildə etiraf etdi. İkili agent Boris Korjak əvvəlcə sancını ağcaqanad dişləməsi saymışdı. Qanaxma və aritmiya başlayanda isə özünü həkimə çatdıra bilmiş və həkim yaradan risinli mikrokapsulu çıxarmışdı. Vladimir Voynoviçin "Metropol" mehmanxanasındakı nömrəsində siqaretləri psixotrop maddə hopdurulmuş başqa bir qutu ilə əvəz etmişdilər. 1979-cu ilin dekabrında Hafizulla Əminin iqamətgahındakı aşpaz Əfqanıstan liderinin yeməyinə zəhər qatdı. Planın mahiyyətindən xəbərsiz olan sovet səfirliyinin KQB həkimləri onu xilas etdilər. Amma bunun xeyri olmadı: az sonra Əmin elə sovet xüsusi təyinatlıları tərəfindən güllələndi.

SSRİ dağıldıqdan sonra dəst-xətt dəyişdi, janr isə qaldı.

1995-ci il avqustun 1-də bankir İvan Kivelidinin Moskvadakı kabinetində halı qəfil pisləşdi. İki gün sonra katibəsi Zara İsmayılova, daha bir gün sonra isə onun özü də huşa gəlmədən öldü. İstintaq müəyyən etdi ki, telefon dəstəyinin membranına bir damcı fosfor-üzvi maddə çəkilibmiş. Maddə o qədər toksik idi ki, sonradan telefona toxunanlar da zərər gördülər. 2018-ci ildə, Solsberidəki zəhərlənmədən sonra rusiyalı jurnalistlər həmin maddənin "Noviçok"la eyni ailəyə aid olduğunu yazdılar. Dairə qapanmışdı.

Sankt-Peterburqlu başqa bir sahibkar, Roman Tsepov 2004-cü ildə öldü. Bir neçə gün ərzində bədəni yaralarla örtüldü, damarları ən yüngül toxunuşdan belə partlayırdı. Əvvəlcə ölümcül kolxisin dozasından şübhələndilər. Sonra radioaktiv maddə versiyası ortaya çıxdı: bədəndən gələn şüalanma normanı dəfələrlə aşırdı.

Kriminal zəhərlənmələrin qurbanları arasında jurnalistlər xüsusi yer tutur. 2003-cü ildə Yuri Şekoçixin naməlum maddə ilə intoksikasiyadan qəfil öldü. 2004-cü ilin sentyabrında Anna Politkovskaya Beslana uçan təyyarədə çay içdikdən sonra huşunu itirdi. Həmin hadisədə onu xilas etdilər, iki il sonra isə yaşadığı binanın girişində güllələdilər. Vladimir Kara-Murza iki dəfə - 2015 və 2017-ci illərdə - ağciyər, ürək, böyrək və qaraciyər çatışmazlığı ilə reanimasiyaya düşdü. Bellingcat və The Insider araşdırmaçılarının məlumatına görə, hər iki hadisədə sonradan Navalnı işində də adı keçən həmin FSB qrupunun əməkdaşları iştirak ediblər.

2018-ci ilin payızında siyasi fəal Pyotr Verzilov Moskva xəstəxanalarından birinə yerləşdirildi. Diaqnoz laborator analizlə deyil, klinik mənzərə əsasında qoyuldu: genişlənmiş bəbəklər, quru və isti dəri, şüur qarışıqlığı, taxikardiya. Zəhərlənmə zamanı rast gəlinən klassik antixolinergik sindrom.

Zəhərlər "terrorla müharibə"də də istifadə olunub. 2002-ci ildə səhra komandiri Xəttab bu yolla aradan götürüldü: geniş yayılmış versiyaya görə, kuryer ona nəm dəri ilə təmasda təsir göstərən toksin hopdurulmuş məktub çatdırmışdı. Elə həmin ilin oktyabrında Dubrovkadakı teatr mərkəzinin azad edilməsi də bu tip xüsusi əməliyyatlara aid edilir. Zala karfentanil törəməsi əsasında aerozol buraxıldı. O, həm terrorçuları, həm də səkkiz yüzə yaxın girovu huşsuz vəziyyətə saldı. Lakin qapalı məkanda konsentrasiya düzgün hesablanmamışdı, tibbi xidmət isə kütləvi təxliyəyə hazır deyildi. Yüz otuzdan çox insan zəhərli qazın təsirindən bir daha ayılmadı.

2006-cı ilin noyabrında London əvvəllər rast gəlmədiyi bir qətl üsulu ilə üzləşdi. Aleksandr Litvinenko Millennium otelindəki görüşdən sonra qəfil xəstələndi və üç həftə sonra öldü. Səbəb polonium-210 idi. Britaniyada keçirilən açıq istintaq izotopun çaya qatıldığını müəyyən etdi və icraçılar kimi rusiyalı Andrey Luqovoyla Dmitri Kovtunun adını çəkdi. İstintaq əməliyyatın böyük ehtimalla Rusiya FSB-si xətti ilə həyata keçirildiyi və ölkənin ali rəhbərliyi səviyyəsində təsdiqləndiyi qənaətinə gəldi.

Tibbi baxımdan Litvinenko işi iki cəhətdən qeyri-adi idi. Adi klinik məntiq burada demək olar ki, işləmirdi: toksik radioaktiv izotop tam başqa diaqnostik yanaşma və müalicə üsulları tələb edirdi. Əvəzində Londonun müxtəlif yerlərində qalan polonium izləri hadisə iştirakçılarının hərəkətini sanki görünməz cığır boyunca bərpa etməyə imkan verdi. Hər şeyi gizlətməli olan zəhər cinayətin marşrutunu özü üzə çıxardı.

Ancaq bütün bunların bir ölkənin monopoliyası olduğunu düşünmək olmaz. 2000-ci ildə CIA-nın Fidel Kastro ilə bağlı planlarını əks etdirən sənəd məxfilikdən çıxarıldı. Kuba liderinin məşhur saqqalının tökülməsi və bununla da xarizmasının tanınan bir hissəsini itirməsi üçün ayaqqabılarına tallium duzları səpmək təklif olunurdu. Kastronun tez-tez çıxış etdiyi radiostudiyada LSD püskürtmək ideyası da müzakirə edilmişdi: preparatın təsiri altında o, canlı efirdə cəfəngiyat danışmalı idi. Talliumun adı daha sonralar üzə çıxan Nelson Mandelanın aradan götürülməsi planlarında da keçir.

Yeri gəlmişkən, talliumu məşhurlaşdıran kəşfiyyat deyil, Aqata Kristi oldu. Onun "Ağ at" villası" romanında talliumla zəhərlənmə intriqanın əsasını təşkil edir. Sonralar yazıçını dəfələrlə cinayətkarlara hazır resept verməkdə qınamışdılar. Kristinin bu sahədəki biliyi yalnız kitablardan gəlmirdi: müharibə illərində o, hospital aptekində işləyib.

Dərc olunmuş məlumatlara görə, Britaniya və ABŞ xüsusi xidmətləri 1990-cı illərdə bir neçə dəfə Səddam Hüseynin sevdiyi siqarlara zəhər qatmağa cəhd ediblər, lakin icraçılar hər dəfə həbs olunublar. 1997-ci ilin sentyabrında Ammanda İsrail kəşfiyyatının agentləri HƏMAS lideri Xalid Məşəlin qulağına fentanilə bənzər maddə püskürtdülər. Agentlər hadisə yerində saxlanıldılar və İordaniya kralının təzyiqi ilə İsrail Məşəlin həyatını xilas edən antidotu təhvil verdi. 2010-cu ilin yanvarında Dubaydakı oteldə həmin hərəkatın hərbi qanadının rəhbərlərindən Mahmud əl-Məbhuh öldürüldü. Qərb ölkələrinin pasportlarından istifadə edən zəhərləyicilər dəstəsi özlərini turist kimi göstərirdi. Lazım olan anda otağa daxil oldular, miorelaksant inyeksiyası ilə qurbanın tənəffüsünü iflic etdilər və onu yastıqla boğdular.

2004-cü ildə, Ukraynada prezident seçkisi kampaniyasının qızğın çağında Viktor Yuşşenko ağır xəstələndi. Onun eybəcərləşmiş üzünün fotoları həmin siyasi dövrün ən yaddaqalan görüntülərindən birinə çevrildi. Sonrakı laborator tədqiqatlar onun çox yüksək səviyyədə 2,3,7,8-tetraxlorodibenzo-p-dioksin, yəni TCDD təsirinə məruz qalmasını təsdiqlədi. Görünür, hesab ölümə deyil, sifəti eybəcərləşmiş namizədin seçicilərin, ilk növbədə qadınların bir hissəsinin rəğbətini itirməsinə yönəlmişdi.

Bir il sonra Tbilisidə Gürcüstanın baş naziri Zurab Jvania ölü tapıldı. Hər şey nasaz sobadan sızan dəm qazı ilə zəhərlənməyə bənzəyirdi və əvvəlcə heç kim qəsd ehtimalını düşünmədi. Sonralar baş nazirə dəmir-pentakarbonil verildiyi barədə versiya ortaya çıxdı. Bu maddə ilə zəhərlənmənin klinik mənzərəsi karbon-monoksidin təsirindən demək olar ki, fərqlənmir.

***Ardı Səh. 6***

Əvvəli səh. 5

# Kriminal zəhərlənmələr: mərgümüş və risindən poloniuma və epibatidinə qədər

## Hər şey zəhərdir və hər şey dərmandır.Yalnız doza dərmanı zəhərə, zəhəri isə dərmana çevirir

2017-ci ilin fevralında Kuala-Lumpur hava limanında KXDR liderinin ata bir, ana ayrı böyük qardaşı Kim Çen Nam öldürüldü. Televiziya üçün zarafat çəkilişində iştirak etdiklərini düşünən iki qadına reysini gözləyən kişinin üzünə əlləri ilə toxunmaq tapşırılmışdı. Hər birinin ovcuna çəkilən komponentlər ayrı-ayrılıqda zərərsiz idi, lakin qurbanın dərisində birləşəndə son dərəcə güclü VX toksini əmələ gətirirdi. Malayziya mütəxəssisləri həlak olan şəxsin üzündə və göz ətrafında bu hərbi sinir-iflicedici maddənin izlərini aşkar etdilər. Burada insanı heyrətləndirən təkcə adamların sıx olduğu terminalda hücuma cəsarət edilməsi deyil. Aydın oldu ki, kütləvi qırğın silahı kimi yaradılmış maddə heç nədən şübhələnməyən insanların arasında ayrıca bir şəxsin qətli üçün də yararlıdır.

Bir il sonra Avropa yenidən sinir-iflicedici maddə ilə üzləşdi. 2018-ci ilin martında Solsberidə Sergey Skripal və qızı Yuliya huşsuz vəziyyətdə tapıldılar: "Noviçok" ailəsinə aid A-234 maddəsi onların evinin qapı dəstəyinə çəkilmişdi. Zəhərlənmə hadisəsindən sonra həmin evdə əməliyyat tədbirləri həyata keçirən polis əməkdaşı da reanimasiyaya düşdü. Xoşbəxtlikdən, onların hamısı sağ qaldı. Amma hadisə bununla bitmədi. Bir müddət sonra qonşu Eymsberi şəhərinin sakini Don Stercess parkda xeyriyyə ianələri üçün qoyulmuş qutudan Nina Ricci ətirinə bənzəyən flakon götürdü, ətiri biləyinə püskürtdü və öldü. 2025-ci ilin dekabrında dərc edilmiş müstəqil Britaniya istintaqının yekun hesabatı Solsberidəki əməliyyata görə məsuliyyəti Rusiyanın Baş Kəşfiyyat İdarəsinin üzərinə qoydu və Stercessin ölümünü eyni toksik maddə mənbəyi ilə əlaqələndirdi.

Toksik silahın ən qorxulu xüsusiyyətlərindən biri odur ki, o, öz hədəfinə çatdıqdan sonra da "yaşaya" bilir. Güllənin yolu konkret bir nöqtədə bitir. Güclü təsirli kimyəvi birləşmə isə əşyanın üzərində, otaqda və ya torpaqda qala, həftələr sonra təsadüfi bir insanı qurbana çevirə bilər.

Yeri gəlmişkən, Solsberi bu qəbildən ilk hadisə deyildi. Hələ 2015-ci ildə bolqar silah taciri Emelyan Gebrev oxşar əlamətlərlə xəstəxanaya düşmüşdü: gözlərdə kəskin göynəmə, qəfil zəiflik, huşun itməsi, koma. Onun oğlu və əməkdaşlarından biri də özünü pis hiss etmişdi. Həkimlər zəhərlənməni təsdiqləsələr də, maddəni müəyyənləşdirə bilmədilər. Solsberi hadisəsindən sonra bu işə yenidən qayıdıldı və söhbətin eyni sinfə aid birləşmədən getdiyi qənaətinə gəlindi.

2020-ci ilin dekabrında araşdırmaçılar FSB əməkdaşlarından ibarət müşayiət qrupu barədə materiallar dərc etdilər. Elə həmin vaxt Navalnının özünü Təhlükəsizlik Şurası katibinin köməkçisi kimi təqdim edərək həmsöhbətlərindən birindən əməliyyatın təfərrüatlarını öyrəndiyi telefon danışığı da ortaya çıxdı: Həmin versiyaya görə, zəhər alt paltarının daxili tikişlərinə çəkilmişdi. 2021-ci ilin yanvarında siyasətçi Rusiyaya qayıtdı və elə hava limanındaca saxlanıldı. Sonra üç il koloniyalarda keçdi, 16 fevral 2024-cü ildə isə Rusiya Federal Penitensiar Xidməti bildirdi ki, məhbus gəzintidən sonra özünü pis hiss edib və vəfat edib. 2025-ci ilin sentyabrında Navalnının dul həyat yoldaşı bildirdi ki, tərəfdarları bioloji material nümunələri əldə edib xaricə göndərə biliblər və iki laboratoriya zəhərlənmə faktını təsdiqləyib, amma maddənin adını açıqlamaqdan imtina edib. Beş ay sonra ad da səsləndi: epibatidin. Beş Avropa hökuməti nümunələrdə epibatidinin mövcudluğunun analizlərlə təsdiqləndiyini və zəhərlənmənin ölümün ən ehtimal olunan səbəbi olduğunu bəyan etdi.

Epibatidin "Noviçok"dan tamamilə fərqli təsir göstərir. O, nikotin asetilxolin reseptorları ilə qarşılıqlı əlaqəyə girərək sinir sisteminin ağır pozğunluğuna səbəb ola bilər: keyimə, qıcolmalar, ürək-damar tənzimlənməsinin pozulması, tənəffüsün dayanması. Kimyaçılar bu maddəni çoxdan tanıyırlar. Amerikalı tədqiqatçı Con Deyli onu hələ 1974-cü ildə Ekvadorun zəhərli ağac qurbağasının dərisindən ayırmışdı. "Qurbağa zəhəri" ifadəsi təsirli səslənsə də, qətl üçün mütləq ekzotik amfibiyanın dərisindən zəhərli ifrazat əldə etmək lazım deyil. Epibatidini çoxdan sintetik yolla almaq mümkündür. Üstəlik, 2013-cü ildə bir qrup rusiyalı müəllif onun effektiv sintez üsulu barədə məqalə dərc edərək maddəni asılılıq yaratmayan qeyri-opioid analgetik kimi təqdim etmişdi. Beş müəllifdən üçü 1970-ci illərdə "Noviçok" seriyasının hazırlandığı QosNİİOXT institutunun əməkdaşları idi.

Elə hadisələr də var ki, mümkün zəhərlənmə barədə şübhələr olsa da, laborator sübut heç vaxt ortaya çıxmayıb. 2022 və 2023-cü illərdə xaricdə olan jurnalist Yelena Kostyuçenko və ictimai xadim Natalya Arno mümkün toksik təsirin əlamətləri barədə məlumat vermişdilər. Almaniyada Kostyuçenko işi üzrə sui-qəsd versiyası araşdırılırdı, lakin konkret toksinin adı ictimaiyyətə açıqlanmadı. 2016-cı ilin fevralında, dövlət səviyyəsində dopinqə dəstək barədə hesabat dərc edildikdən dərhal sonra Rusiya antidopinq agentliyinin iki rəhbərinin cəmi on gün fərqlə ölməsi də bu sıraya xatırlanır. Yazıçı Dmitri Bıkovun 2019-cu ildə təyyarədə huşunu itirməsi də həmin silsilənin epizodlarından biridir. Amma bu hadisələrin heç biri məhkəmə müstəvisində davamını tapmadı. Kriminal zəhərlənmələrin diaqnostikasında əsas çətinlik ondadır ki, ürəkbulanma, qusma, şüur qarışıqlığı, qıcolmalar, aritmiya, tənəffüs çatışmazlığı və daxili orqanların zədələnməsi onlarla müxtəlif xəstəlikdə də rast gəlinir. Bu əlamətlərin heç biri özü-özlüyündə kimyəvi intoksikasiyanı sübut etmir. Bununla belə, mən zəhəri ideal qətl aləti adlandırmazdım. Bəli, zəhər cinayətkara hadisəni xəstəlik kimi göstərmək və vaxt qazanmaq imkanı verir. Amma deməkolar ki, hər bir toksik maddə orqanizmdə, əşyaların üzərində, ətraf mühitdə və ya laborator nümunələrdə iz buraxır. Məsələ yalnız bu izin vaxtında aşkar edilib düzgün müəyyənləşdirilməsidir.

Arsendən və risindən poloniuma və epibatidinə qədər zəhərlər, texnologiyalar və siyasi dövrlər dəyişib. Dəyişməyən bir şey var: qətli təbii ölümə bənzətmək istəyi. Bu uzun tarixin əsas dərsi isə, yəqin ki, sadədir. Ağır vəziyyət və ya qəfil ölüm adi klinik mənzərəyə uyğun gəlmirsə, zəhərlənmə ehtimalı yada düşən son variant olmamalıdır.

# "Milli iqtisadi inkişafda yeni idarəetmə mexanizmi: hərəkətverici qüvvələr və istiqamətlər"

**"Naxcıvanda, Qarabağ və Şərqi Zəngəzurdakı kimi idarəetmə üsul-idarəsi yaratmaqla faktiki olaraq biz bu üc bölgəni inzibati nöqteyi-nəzərdən də birləşdiririk. Təbii ki, Naxcıvan Muxtar Respublikasının muxtar respublika statusu qalmaq şərti ilə, ancaq idarəetmə qaydaları təkmilləşməlidir."**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxcıvan görüşündəki müsahibəsindən**




Sosial, iqtisadi, əlaqələrin milli xüsusiyyətləri xalqların tarixinə, sosial və mədəni şəraitinə uyğun formalaşır və inkişaf edir. Bu xüsusiyyətləri İqtisad üzrə fəlsəfə doktoru Ramal İrşad oğlu Kərimovun qələmə aldığı "Milli iqtisadi inkişaf: Yeni hərəkətverici qüvvəər" monoqrafiyasında mövcud şəraitə və iqtisadi siyasətə uyğun olaraq təqdim etməyi bacarıb. Monoqrafiyada iqtisadi əlaqələrin milli xüsusiyyətləri heç də həmin əlaqələrin təcridliyini göstərmir, özünəqapanmağa doğru aparmır. Əksinə, milliləşmə ilə inteqrasiyalaşmanın qarşılıqlı əlaqələnməsinə və bununla da milli iqtisadi inkişafın formalaşmasının zəruri keyfiyyət tərəfi kimi özünü göstərir. Ölkədə iqtisadi inkişafın etnik-mental milli cəhətləri ilə beynəlmilli cəhətlər birgə, vəhdətdə baxılır. Bu istiqamət yeni hərəkətverici qüvvələr olan rəqəmsallaşma, rəqəmsal transformasiya,süni intelekt və sair başqaları üçün vacib hal sayıla bilər.

Belə tələb milli iqtisadiyyatın bütün sektorlarında qarşıya qoyulan məqsədlə ona çatmaq vasitələri arasında uyğunluğu yaratmaq üçün bazar subyektlərinin fərdi və kooperativ maraqlarının oxşar sistemini yaratmağı qarşıya qoyur. Daha vacibi isə iqtisadi davranışın və sosiallaşmanın ənənəvi-mütərəqqi formalarını özü üçün seçən Azərbaycan, sosial məzmunlu milli iqtisadiyyatı formalaşdırmaq istiqamətini əsas götürür.

Azərbaycanda milli iqtisadiyyatın mövcud vəziyyətinin təhlili və əldə olunan nəticələr əsasında ölkənin perspektiv dövr üçün beynəlxalq iqtisadiyyata daha fəal qovuşması və orada güclü mövqe tutmasının bütün potensial imkanların olduğu monoqrafiyda araşdırılır. Milli istehsal məkanının, "Made in Azerbaijan" brendinin genişlənməsi ilə açıq iqtisadiyyata, çoxtərəfli iqtisadi əməkdaşlığa və inteqrasiyalasmağa doğru inamlı addım atmağın, milli iqtisadiyyatımızın gələcək mənzərəsini indidən görməyin yolları aşkara çıxarılır.

Kitabda Azərbaycan üçün xarakterik olan milli xüsusiyyətli bazar mexanizminin, onun aparıcı elementlərinin çevik işləməsinin bütün reallığı ölkənin makroiqtisadi göstəricilərində necə əks etdirməsi araşdırılır. Eyni zamanda iqtisadiyyatın ayrı-ayrı sektorları üzrə təcridləşmiş iqtisadi artımı deyil, yalnız dayanıqlı iqtisadi artımın davamlı olmasının, bütünlükdə makroiqtisadi inkişaf məqsədinə çatmağın balanslaşmış yolunun yalnız ənənəvi bazarlarda deyil daha çox yeni bazarlarda axtarılması imkanları aşkara çıxarılır.

Monoqrafiyada milli iqtisadi inkişafın ümumi cəhətləri ilə yanaşı, onun milli dəyərlərə və sosial-iqtisadi şəraitindən irəli gələn xüsusiyyətlərə malik olmasının obyektiv zərurət olduğunu elmi cəhətdən əsaslandırılmışdır. Beləki, milli iqtisadiyyata milli təsərrüfatların təkamülü müstəvisində baxılaraq milli iqtisadi inkişafa iqtisadiyyatın ayrı-ayrı sahələrindəki artımla deyil, yalnız bütün sahələrdə uyğunlaşdırılmış birgə artımla nail olmağın yolları göstərilmişdir.

Göstərilən yollarla irəlilədikcə aydın olur ki, milli xüsusiyyətli bazar mexanizmi iqtisadi əlaqələrin xarici təzahür forması kimi deyil, milli iqtisadiyyatın tarixən özünün formalaşdırdığı daxili amillər qismində özünü göstərir. Eyni zamanda aydın olurki, bazar mexanizminin formalaşdırdığı milli xüsusiyyətlər və onların beynəlxalq əmək bölgüsü sistemində daha çox uyğunlaşması özlüyündə Azərbaycan iqtisadiyyatının sosial meylinin səmərəli formasını da yaradır. Beləki, milli firmalar, şirkətlər və hətta dövlət də daxil olmaqla iqtisadi subyektlərin fəaliyyətinin səmərəli qarşılıqlı əlaqələnməsini ifadə edən milli xüsusiyyətli bazar mexanizmi formalaşır. Tədqiqatın belə yeni yanaşma ilə aparılması milli iqtisadi inkişaf meyarlarının düzgün seçilməsinə və bununla da milli iqtisadiyyatda bazar mexanizminin fəal işləməsi şəraitinin yaradılmasına kömək edir.

Milli iqtisadi inkişafın hərəkətverici qüvvələrinin aşkara çıxarılmasında əsas diqqət iqtisadi fəaliyyətin əsasında dayanan real və maliyyə sektorlarının birliyini təmin edən iqtisadi milliləşmənin məzmunca aydınlaşdırılmasına verilir. Belə əsaslı tədqiqat üsulu ilə monoqrafiyada milli iqtisadiyyatın bütövlüyünün və tamlığının təminatı probleminin həlli ilə əlaqədar bazar mexanizmində tələblə təklifin uyğunluğundan, rəqabət mühitinin formalaşmasından, qiymətin əmələ gəlməsindən səmərəli istifadə kimi başlıca elementlərin birgə, sistemli işləməsinə nail olmağa milli iqtisadi inkişaf amillərinin təsirinin konkret yolları göstərilir.

Bununla milli iqtisadi inkişaf amillərinin (xüsusən, innovasiya, innovasiyalı investisiya, rəqənsal transformasiya və sair) qarşılıqlı təsirinin tədqiq olunmasına əsaslanaraq iqtisadiyyatın milli xüsusiyyətlərinin daha da genişləndirilməsinin potensial imkanları aşkara çıxarılmışdır. Qeyd edilən potensialın milli iqtisadi inkişafın funksional istiqamətindən və istehsalçıların fərdi maraqlarının və motivlərinin ümumiliyindən irəli gəlməsi imkanlarından asılı olması əsaslandırılmışdır.

**İ.ƏLİYEV**

# İyul ayında dünya rekordu: təhlükə böyüyür

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb*

## Dünya dənizlərinin istiliyi rekord həddə çatıb, Avropada dağıdıcı istilər müşahidə olunur

Avropa İttifaqının Kopernik İqlim Dəyişikliyi Xidməti iyul ayı üçün Atlantik sahillərində və qərbi Aralıq dənizində dəniz səthinin temperaturunun rekord həddə çatdığını və Avropa dənizlərini şiddətli dəniz istiliyi dalğalarının bürüdüyünü aşkar edib. Qlobal miqyasda soyuq qütb bölgələrindən kənarda dəniz səthinin orta temperaturu ay ərzində rekord həddə çatıb və 2023-cü ildə qeydə alınan əvvəlki iyul rekordunu qırıb.

Məlumatlar göstərir ki, Qərbi Avropa rekord həddə ən isti iyun-iyul dövrünü yaşayıb və Aralıq dənizinin bir hissəsini viran qoyan müstəsna istiliyə səbəb olan meşə yanğınları baş verib. Kopernik İDX-dən bildirilib ki, 2026-cı ilin ilk iki yay ayı adi haldan 2,79C daha isti olub. Bu, dörd il əvvəl qeydə alınan əvvəlki rekordu qırıb və mövsümün başlanğıcından bəri müstəsna istiliyin davamlılığını əks etdirir.

Mərkəzi Avropa Avstriya və Slovakiya da daxil olmaqla bir neçə ölkədə milli temperatur rekordlarının düşdüyü isti dalğasından sarsılır. Bu, bitki örtüyünü qurudan və qitəni yanmağa hazırlayan qızmar yayın



fəsadlarıdır. Hava Proqnozları üzrə Avropa Mərkəzinin iqlimşünası Samanta Burgess bildirib ki, bu yay iqlim dağılmalarının bir-birini gücləndirən ekstremal hadisələri gücləndirməsinin aydın nümunəsi olub.

O deyib: "Davamlı yüksək təzyiqli sistemlər Qərbi Avropa üzərində istiliyi saxladığı üçün ekstremal temperatur geniş yayılmış quraqlığı da gücləndirib. Torpaq quruduqca təbii soyutma təmin etmək qabiliyyətini itirir və istiliyin daha asan toplanmasına imkan verir."

Qalıq yanacaq çirklənməsi ilə həddindən artıq yüklənən Avropada yazın sonundan bəri bir sıra istilik dalğaları baş verib və iyun, iyul, avqust aylarında şiddətli istiliyin 10.000-dən çox insanın ölümünə səbəb olacağı gözlənilir.

Bildirilir ki, may və iyun aylarında müşahidə olunan geniş yayılmış quraqlıq ötən ay daha da güclənib və Qərbi Avropanın böyük bir hissəsində yağış və torpaq nəmliyi olduqca aşağı olub. Fransa, İspaniya və Almaniya və Böyük Britaniyanın bəzi hissələrini əhatə edən quru bölgələrdə aşağı çay axınları, o cümlədən aşağı axın ölkələrində su təchizatına, suvarma və elektrik stansiyalarına mənfi təsir göstərib. Soyuducu suyun çatışmazlığı səbəbindən ötən həftə Polşada iki kömürlə işləyən elektrik stansiyası, eləcə də Macarıstanın yeganə nüvə elektrik stansiyası 44 illik tarixində ilk dəfə bağlanmaq məcburiyyətində qalıb.

İstilik və quraqlıq Avropa iqtisadiyyatı üçün ən böyük ekoloji təhdidlərdən biridir. Bu yay üçün ilkin hesablamalara görə, iyun ayının istiliyi taxıl fermerlərinə 2 milyard avroluq məhsul itkisinə səbəb olub.

İqtisadçılar xəbərdarlıq edirlər ki, uzunmüddətli zərər, xüsusən də quraqlıq uzun illər davam edərsə, qısamüddətli itkiləri ört-basdır edə bilər. Avro-Aralıq Dənizi İqlim Dəyişikliyi Mərkəzi Avropa İqtisadiyyat İnstitutunun rəhbərlik etdiyi yeni işçi sənədində bildirir ki, 2015-18-ci illərin meqa quraqlığı Avropaya 439 milyard avroya başa gəlib və kənd təsərrüfatına yüksək, lakin qısamüddətli zərbələr, istehsal və tikintiyə isə aşağı, lakin davamlı təsirlər göstərib. Tədqiqatçılar iddia edirlər ki, ənənəvi metodlar quraqlıqla bağlı iqtisadi itkiləri əhəmiyyətli dərəcədə az qiymətləndirir, çünki illər sonra onları aradan qaldıra bilmir.

Avro-Aralıq Dənizi İqlim Dəyişikliyi Mərkəzi və Milan Politexnik Universitetinin tədqiqatçısı və tədqiqatın aparıcı müəllifi Marta Mastropietro deyir: "Hətta tək bir quraq il belə real iqtisadi ziyana səbəb olur, lakin davamlı quraqlıq fərqlidir: onun təsirləri sektorlar arasında birləşə və illərlə toplanmağa davam edə bilər."

Avropa Meşə Yanğınları Məlumat Sistemi tərəfindən dərc edilən məlumatlar göstərir ki, ilin əvvəlindən bəri AB-də təxminən yarım milyon hektar ərazi yanıb və yanan bitki örtüyü qalın tüstü buraxdığı üçün orta səviyyədən yuxarı çirklənmə ilə müşayiət olunur. Alovlarla mübarizəni çətinləşdirən isti, quru və küləkli şərait ilin bu vaxtı üçün yeni rekordlar qırıb.

Lleida Universitetinin meşə təsərrüfatı mühəndisliyi professoru Viktor Resko de Dios deyir: "İqlim dəyişikliyi meqa-meşə yanğınlarının inkişafı üçün getdikcə daha əlverişli şərait yaradır. Xoş xəbər budur ki, bitki örtüyünün idarə olunması və şəhərsalma yolu ilə problemi əsasən azalda bilərik, lakin, bir şeyi dəqiq bilməliyik: lazımi adaptiv tədbirləri görməsək, vəziyyət qəlizləşəcək"

**_Lalə Mehralı_**

# Rusiya mediası terrorçuların təbliğat maşınına çevrilir



Şimal qonşumuz tarixin müxtəlif dövrlərində olduğu kimi, bu gün də Azərbaycana münasibətdə qərəzli və düşmənçilik mövqeyindən çıxış edir. Səbəbi də aydındır: Azərbaycan regionun aparıcı güc mərkəzidir. 30 il erməni işğalı altında olmuş torpaqlarını cəmi 44 günə azad etməyə nail olub. Eyni zamanda, iqtisadi, sosial, hərbi sahədə böyük uğurlara imza atıb, beynəlxalq aləmdə böyük nüfuz sahibinə çevrilib. Bütün bunlar Avropa dövlətləri kimi Rusiyanın da başına daş, canına azar doldurub. Hər vəchlə ölkəmizin beynəlxalq nüfuzuna xələl gətirməyə, iqtisadi, siyasi, hərbi uğurlarına kölgə salmağa çalışır. Bəzi Kreml rəsmiləri isə hiyləgər gediş etdiklərini düşünərək Azərbaycanla tərəfdaş, dost münasibətdə olduqlarını söyləyir, bəyanatlar, açıqlamalar verirlər. Lakin bu fikirlərin səmimi və reallığı əks etdirmədiyi şübhəsizdir. Səmimi olduqlarını o zaman nümayiş etdirə bilərlər ki, Azərbaycana qarşı vaxtaşırı hürən itlərinin boyunlarındakı ipləri çəksinlər. Təpki isə hələ ki, baş vermir. Əksinə, Rusiya Prezidentinin xüsusi nümayəndəsi Mixail Şvıdkoyu, ermənipərəst deputatlar Konstantin Zatulini, Anatoli Vassermanı, jurnalistlər Salovyovu, Simonyanı, Knyazevi və digərlərinin beyinlərini yuyub, meydana ötürməklə Azərbaycana qarşı daha geniş şər və böhtanlar səsləndirməyə təhrik edirlər. Dəfələrlə Azərbaycanın rəsmi dairələri, hüquq-mühafizə orqanları Rusiyanın qaranlıq dairələrini, rəsmilərini, media mənsublarını ölkəmizə qarşı səsləndirilən separatçı fikirləri, bəyanatları dayandırmağı tələb etsələr də, nəticəsi olmayıb.

### Rusiya vətəndaşları haqqında həbs qərarı verildi

Son vaxtlar isə Rusiya rəsmi dairələri məkrli kampaniyalarına jurnalist İvan Knyazevi, qondarma media eksperti Semyon Uralovu və Rusiyanın nəqliyyat nazirinin müşaviri Aleksey Çadayevi və digər pozucu məxluqları qoşublar. Onlar birbaşa Kremldən verilən təlimata uyğun olaraq beynəlxalq hüquq norma və prinsipləri kobud şəkildə pozaraq Azərbaycanın konstitusiya quruluşunun zorla dəyişdirilməsinə, ərazi bütövlüyünün parçalanmasına, milli nifrət və düşmənçiliyin salınmasına, habelə terrorçuluğa açıq çağırışların edilməsinə cəhdlər göstərirlər. Çirkin kampaniya Rusiyadakı azərbaycanlı diaspor nümayəndələrinə, iş adamlarına və sadə vətəndaşlara qarşı qeyri-insani rəftarla, qanunsuz həbslərlə paralel aparılır. Bu da onu təsdiq edir ki, azərbaycanlılara qarşı hücumlar, həbslər, diaspor nümayəndələrinin ölkədən deportasiya olunmaları birbaşa rəsmi Kremldən verilən göstərişdir. Məhz Kremlin sifarişi əsasında 2026-cı il iyulun 14-də "'Moskva 24"-də telekanalın aparıcısı, jurnalist Knyazev İvan Andreyeviç, Rusiyada siyasi məsləhətçi və media eksperti kimi özünü təqdim edən Uralov Semyon Sergeyeviç və televiziya jurnalisti və müxbiri kimi fəaliyyət göstərən, Rusiyanın nəqliyyat nazirinin müşaviri Çadayev Aleksey Aleksandroviç "YouTube" platformasında "Sem n Uralov" adlı kanalda yayımlanan "Çistota ponimanie" verilişində Azərbaycana qarşı zoraki üsulların tətbiq edilməsi, ölkənin konstitusiya quruluşunun zorla dəyişdirilməsi və ərazi bütövlüyünün parçalanması, eləcə də milli nifrət və düşmənçiliyin salınmasına yönələn çağırışlarla çıxışlar ediblər. Bütün bunlar bir daha Rusiyanın ənənəvi ampluasından əl çəkmədiyini göstərir.

Azərbaycan dövləti və ictimaiyyəti Rusiyanın bəzi rəsmi şəxslərinin və media orqanlarının anti-Azərbaycan kampaniyasına göz yummaq fikrində deyil. Artıq "'Moskva 24"-də telekanalında ölkəmizin suverenliyinə, konstitusiya quruluşuna və ərazi bütövlüyünə qarşı yönəlmiş çağırışlarla bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğunda Cinayət Məcəlləsinin 214-2 (terrorçuluğa açıq çağırışlar), 281.2 (dövlət əleyhinə yönələn açıq çağırışlar) və 283.2.1-ci maddələri (milli nifrət və düşmənçiliyin salınması) ilə cinayət işi qaldırılıb. Toplanmış sübutlar əsasında Semyon Uralov, İvan Knyazev və Aleksey Çadayev barəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214-2, 281.2 və 283.2.1-ci maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilmələrinə dair qərarlar qəbul edilib, həmin şəxslər Azərbaycanın hüdudlarından kənar olduqlarından axtarış elan olunaraq məhkəmənin müvafiq qərarları ilə barələrində həbs qətimkan tədbiri seçilib. Eyni zamanda, təqsirləndirilən şəxslərin tərəfdaş dövlətlərin ərazisində müəyyən edilərək tutulması və Azərbaycana təqdim olunması məqsədilə aidiyyəti dövlət qurumlarına Baş Prokurorluq tərəfindən müvafiq müraciətlər edilib, habelə onların İnterpol kanalları vasitəsilə beynəlxalq axtarışının təşkili istiqamətində zəruri tədbirlər görülüb.

### Dumanın deputatı ömrünün qalan hissəsini Bakı həbsxanasında keçirə bilər

"'Moskva 24" telekanalında ölkəmiz əleyhinə səslənən şər və böhtanlara, separatçı çıxışlara, terrorçuluğa çağırışlara etiraz olaraq Azərbaycan Mətbuat Şurası da bəyanatla çıxış edib. Bəyanatda qeyd olunur ki, Rusiyanın bəzi kütləvi informasiya vasitələrində Azərbaycan dövlətinə, xalqına, ölkə rəhbərliyinə və görkəmli şəxsiyyətlərimizə qarşı nalayiq, təhdid xarakterli və təhqiramiz materiallar və fikirlər sivil jurnalistika prinsiplərinə, etik normalara və insani dəyərlərə tamamilə ziddir: "Azərbaycan Mətbuat Şurası bu kimi halları Azərbaycanla Rusiya arasındakı ikitərəfli münasibətlərin ruhuna, həmçinin media əlaqələrinə tamamilə zidd hesab edir. Təəssüf ki, Rusiyanın informasiya məkanında belə hallar ardıcıl şəkildə müşahidə edilir. Azərbaycan Mətbuat Şurası bu kimi halları Azərbaycanla Rusiya arasındakı ikitərəfli münasibətlərin ruhuna, həmçinin media əlaqələrinə tamamilə zidd hesab edir. Ayrıca qeyd etmək istərdik ki, Azərbaycan mediası həmişə qonşu ölkələr, o cümlədən Rusiya ilə bağlı məsələlərə həssas münasibəti ilə seçilib, peşə prinsiplərindən kənar fikir və iddialara yer verməyib. Buna görə də Rusiyanın informasiya müstəvisində belə xoşagəlməz halların yaşanması Azərbaycan ictimaiyyətində dərin təəssüf və əsaslı narazılıq doğurmaqdadır". Bəyanatda o da vurğulanır ki, Rusiya informasiya məkanının sərt qanunvericilik tənzimlənməsi şəraitində belə materialların sistemli şəkildə ortaya çıxması Rusiya Federasiyasının dövlət siyasəti səviyyəsində onların təsdiqinə bərabərdir: "Mətbuat Şurası belə ifadələrə yol verən şəxslərə hüquqi məsuliyyət daşıdıqlarını bir daha xatırladır".

Görünən ondan ibarətdir ki, Rusiyanın rəsmi şəxslərinə, eləcə də fəaliyyətlərini göstərişlər əsasında quran media qurumlarına qarşı Azərbaycan ictimaiyyətində sərt təpki mövcuddur. Ölkəmizin Baş Prokurorluğu separatçı mövqe sərgiləyən, terrora çağırışlar edən Rusiya vətəndaşlarına qarşı cinayət işi qaldırıb və onların həbsinə qərar verib. Söz yox ki, həbs qərarı hansı yolla olursa-olsun icra ediləcək. Çünki Azərbaycan dövləti elə fenomen gücə, qüdrətə malikdir ki, cinayət törədən istənilən şəxs hansı ölkədə gizlənməsindən asılı olmayaraq həbsinə nail olacaq. Artıq bununla bağlı təcrübə də mövcuddur. Sifarişlər əsasında Azərbaycanın dövlət əleyhinə açıq çağırışlar edən, ölkəmizin rəsmi şəxslərini təhqir edən, xalqa qarşı hörmətsizlik göstərən xarici dövlətlərin vətəndaşlarının həbs edilərək Azərbaycana gətirilib, məhkəmə qarşısına çıxarılması təmin edilib. Bu baxımdan tam qətiyyətlə demək olar ki, çox yaxın vaxtlarda Azərbaycan məhkəməsinin müvafiq qərarları ilə barələrində həbs qətimkan tədbiri seçilən və axtarışa verilən jurnalistlər İvan Knyazevi, Salavyov, Simonyan, qondarma media eksperti Semyon Uralovu və Rusiyanın nəqliyyat nazirinin müşaviri Aleksey Çadayevi, Dumanın deputatları Konstantin Zatulini, Anatoli Vassermanı həbs edilərək Bakıya gətiriləcək və ömürlərinin qalan hissəsini dəmir barmaqlıqlar arasında davam etdirəcəklər.

**_İ.ƏLİYEV_**

SON SƏHİFƏ
SƏS
21 avqust
2026-cı il

# Sahibsiz itlər problemi: Heyvan sevgisi ilə ictimai təhlükəsizlik arasında balans necə qorunmalıdır?

***Heyvanları sevmək, digər canlıların qayğısına qalmaq, onları qorumaq və yaşamaq hüquqlarına hörmət etmək deməkdir. Bir çox ailə bu hisslərin uşaqlarda formalaşması üçün ev heyvanı saxlamağa üstünlük verir. Xüsusilə it və pişiklərlə ünsiyyət uşaqlara məsuliyyət, mərhəmət, paylaşmaq və qayğı göstərmək kimi xüsusiyyətləri aşılaya bilər.***



İnsan bir canlıya sevgi və diqqət göstərdikcə onun da buna necə reaksiya verdiyini görür. Bu münasibət insanın daha səbirli, anlayışlı və məsuliyyətli şəxsiyyət kimi formalaşmasına da təsir göstərə bilər.

Lakin küçədə yaşayan heyvanlarla bağlı vəziyyət bir qədər fərqlidir. Sahibsiz itlərə qayğı göstərən və onları qorumağa çalışan insanların sayı çox olsa da, onlardan qorxan, xüsusilə uşaqlarını və ailə üzvlərini qorumaq üçün narahatlıq keçirən insanlar da az deyil.

Bəs problem haradan qaynaqlanır? Sahibsiz itlərin sayı niyə artır? Onların küçələrdən yığılması, sterilizasiyası, peyvəndlənməsi və sığınacaqlarda saxlanılması üçün hansı mexanizm daha effektivdir? Əsas məsələ heyvanların qorunması ilə insanların təhlükəsizliyi arasında balansı necə yaratmaqdır?

SİA mövzu ilə bağlı araşdırma aparıb.

## Azərbaycanda problem yeni deyil

Azərbaycanda sahibsiz itlərlə bağlı problem uzun illərdir müzakirə olunur. 2017-ci ildə Sumqayıtda sahibsiz itlərin şəhər ərazisindən yığılması və uzaqlaşdırılması istiqamətində işlər aparılmışdı. Həmin dövrdə şəhərin müxtəlif ərazilərindən toplanan itlərin şəhərdən kənarda yerləşən əraziyə aparıldığı bildirilirdi. Lakin problemin yalnız bir şəhər və ya rayonun problemi olmadığı sonrakı illərdə də müşahidə edildi. Paytaxtın müxtəlif ərazilərində, o cümlədən yaşayış massivlərində və parklarda sahibsiz itlərə rast gəlinməsi sakinlərin narahatlığına səbəb olur.

2019-cu il fevralın 15-də Heydər Əliyev Fondunun və Bakı Şəhər İcra Hakimiyyətinin sahibsiz itlərlə bağlı işin təkmilləşdirilməsi üzrə birgə layihəsi çərçivəsində Balaxanı qəsəbəsində ”Toplan” Sahibsiz İtlərə Qayğı Mərkəzi fəaliyyətə başlayıb. Layihənin əsas məqsədləri arasında insanların təhlükəsizliyinin təmin edilməsi, sahibsiz heyvanlara qayğı göstərilməsi və cəmiyyətin onlara münasibətinin dəyişdirilməsi yer alıb. Bununla belə, küçələrdə sahibsiz itlərin görünməsi problemin tam həll edilmədiyini göstərir.

## Hücumlar cəmiyyətin narahatlığını artırır

Sahibsiz itlərlə bağlı narahatlığın əsas səbəblərindən biri insanlara hücum və dişləmə hallarının baş verməsidir. Müxtəlif illərdə Qax, Şəki, Göyçay, Salyan və Goranboyda it hücumları ilə bağlı faktlar qeydə alınıb. Hadisələr arasında həm böyüklərin, həm də uşaqların xəsarət alması, bəzi hallarda isə quduzluq əleyhinə peyvəndə ehtiyac yaranması ilə nəticələnən hallar olub. Məsələn, 2021-ci ildə Salyan şəhərində bir sahibsiz itin müxtəlif vaxtlarda 9 nəfərə hücum etdiyi bildirilmişdi. Onların arasında azyaşlı uşağın da olduğu açıqlanmışdı. Belə hadisələr bir tərəfdən heyvanların küçədə nəzarətsiz qalmasının yaratdığı təhlükəni göstərir, digər tərəfdən isə problemin sistemli şəkildə həll edilməsinin vacibliyini ortaya qoyur.

## Əsas təhlükələrdən biri - quduzluq

Sahibsiz heyvanlarla bağlı müzakirələrdə quduzluq xüsusi yer tutur. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, insanlarda quduzluq hallarının 99 faizinə qədəri yoluxmuş itlərin dişləməsi ilə əlaqəlidir. ÜST itlərin ən azı 70 faizinin davamlı şəkildə peyvəndlənməsini quduzluğun ötürülmə zəncirini qırmaq üçün əsas tədbirlərdən biri hesab edir. (Dünya Səhiyyə Təşkilatı)

## Dünya təcrübəsi nə göstərir?

Dünyanın müxtəlif ölkələrində sahibsiz it probleminin həlli üçün fərqli modellər tətbiq olunur. Ümumi yanaşma isə heyvanların sadəcə küçədən yığılması ilə məhdudlaşmır.

ÜST-nin yanaşmasına görə, quduzluğun qarşısının alınmasında əsas istiqamətlərdən biri itlərin kütləvi peyvəndlənməsi, sahibsiz heyvan populyasiyasının idarə olunması və insanlar arasında maarifləndirmənin aparılmasıdır.

Türkiyədə isə son illərdə daha sərt modelə keçid müşahidə olunur. 2024-cü ildə qəbul edilən qanunla bələdiyyələrin sahibsiz itləri küçələrdən toplaması və sığınacaqlarda saxlaması nəzərdə tutulub. Bələdiyyələr üçün sığınacaqların yaradılması və heyvanların reabilitasiyası məqsədilə büdcədən vəsait ayrılması da tələb olunur. Qanun təhlükəli və müalicəsi mümkün olmayan xəstəliklərə malik heyvanlarla bağlı ayrıca tədbirləri də nəzərdə tutur.

2026-cı ildə Türkiyə Bələdiyyələr Birliyi də heyvan sığınacaqları və sahibsiz heyvan xidmətlərinin maliyyələşdirilməsinin qanunla nəzərdə tutulduğunu açıqlayıb.

## Sadəcə toplamaq problemin həllidirmi?

Əslində əsas sual budur: küçədəki itləri topladıqdan sonra nə baş verir?

Əgər heyvanlar yalnız bir ərazidən götürülüb başqa əraziyə aparılırsa, problemin kökündən həllindən danışmaq çətindir. Çünki nəzarətsiz çoxalma davam etdikcə yeni sahibsiz itlərin yaranması mümkündür. Daha effektiv model üçün heyvanların qeydiyyata alınması, sterilizasiya və peyvəndlənməsi, sahibləndirmənin təşviqi, ev heyvanlarının küçəyə atılmasının qarşısının alınması və təhlükəli heyvanlarla bağlı operativ mexanizmlərin yaradılması paralel şəkildə həyata keçirilməlidir.

## Heyvan sevgisi və insan təhlükəsizliyi qarşı-qarşıya qoyulmamalıdır

Sahibsiz heyvanlar məsələsində cəmiyyət iki fərqli mövqeyə bölünür: bir qrup onların qorunmasını, digər qrup isə ilk növbədə insanların təhlükəsizliyinin təmin edilməsini tələb edir. Əslində bu iki yanaşmanı bir-birinə qarşı qoymaq məcburi deyil. Heyvanların qorunması da, insanların təhlükəsizliyi də eyni sistemin tərkib hissəsi ola bilər.

Məqsəd küçədəki bütün heyvanların məhv etmək deyil, nəzarətsiz heyvan populyasiyasını idarə etmək, xəstəliklərin yayılmasının qarşısını almaq, təhlükəli hallara vaxtında müdaxilə etmək və sağlam heyvanların sahibləndirilməsinə şərait yaratmaq olmalıdır. Çünki küçələrdə sahibsiz itlərin çoxalması nə heyvanların rifahı, nə də insanların təhlükəsizliyi baxımından davamlı modeldir.

Bu problemin həlli üçün qısa müddətli kampaniyalardan daha çox, illərlə davam edən vahid dövlət proqramına, real statistika və uçot sisteminə, müasir sığınacaqlara, sterilizasiya və peyvənd proqramlarına, eləcə də ev heyvanı sahiblərinin məsuliyyətinin artırılmasına ehtiyac var. Nəticədə həm insanın təhlükəsizliyi, həm də heyvanların yaşamaq hüququ qorunmalıdır. Məsələnin əsas həlli isə bir tərəfi digərinə qurban vermək deyil, hər iki istiqaməti nəzərə alan işlək sistem qurmaqdır.

*Ayşən Vəli*

**“SƏS” qəzetinə abunə kampaniyası davam edir!**



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

## ELAN

**Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən Sadıqov Loğman Əli oğluna verilmiş 29.07.2024-cü il tarixli 3275 nömrəli, AA0013409 seriyalı xidməti vəsiqə itdiyi üçün etibarsız sayılsın.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet həftədə iki dəfə nəşr olunur

**Tiraj: 2000**